Ulduz Qasımın *"Tələbə gündəliyi"*ndə insan təbiətinin görünən və görünməyən tərəfləri son dərəcə həssaslıqla qələmə alınıb. Ayrı-ayrı məqamlarda müəllif əsərin baş qəhrəmanı Sitarəni ən dərin psixoloji burulğanlardan keçirir. Və bütün gərgin məqamların hamısının axırında biz Sitarənin sabaha olan inamının qırılmadığını, ümidlərinin yaşarı olduğunu hiss edirik, duyuruq.

İnsan təbiət etibarı ilə yaşadığı həyatın ağrı və acılarını, şirinliyini və fərəhini özündən kənara buraxmır. Bütün hallarda o, ağlı-qaralı günlərini özü üçün doğma bilir. Ruhunun, varlığının sərvəti kimi yaddaşına yazır və özü ilə ömrünün sonunacan bu hissləri və duyğuları əbədi xatirə kimi saxlayır.

Əslinə qalsa, *"Tələbə gündəliyi"* əsəri bütövlükdə Ulduz Qasımın həyat xatirələri kimi həm də Sitarə obrazının həyat tarixçəsini ehtiva edir.

Sitarə istəsə də, istəməsə də artıq sevgi ümmanına qərq olub. Bu ümmanda o, boğulsa belə, xilas olmaq yolu axtarmır. Öz hisslərinin daha da dərinliklərinə baş vurur. Sevginin onu çəkəcəyi hər hansı bir tərəfə məmnuniyyətlə üzmək istəyir. Əgər belə demək mümkünsə, o indi böyük dəryanın üzündə yelkənsiz bir qayıq təsiri bağışlayır. Yəni həyat külləkləri - daha doğrusu, sevgi dalğaları onu hansı istiqamətə aparırsa, o da həmin istiqamətə getməyə can atır, istəklidir.

Bir insan olaraq Sitarəni öz hisslərində günahlandırmaq olmaz. Çünki o açıq ürəklə bütün varlığı ilə sevdiyi adama könül açıb və qərara gəlib ki, ona özünü axıracan təslim etməyə psixoloji cəhətdən hazırdır.

Doğrudur, onun sevdiyi oğlanın da təbiətində mərdlik var. O, Sitarənin bu sonsuz sevgisindən qətiyyən sui-istifadə etmək istəmir. Ona sonsuz dərəcədə hörmət bəsləyir. Lap dədə-baba dili ilə desək, abırlı, həyalı münasibəti axıracan qoruyur. Bu da onu göstərir ki, əslində Sitarə də səhv yolda deyil. O da seçdiyi, sevdiyi adamın kimliyini kifayət qədər dərk edir. Nə onun maddi, nə də fiziki imkanlarını nəzərə alır. Bunun heç biri Sitarə üçün meyar deyil. Sitarə üçün meyar sevib-seçdiyi oğlanın ləyaqətidir. İnsani keyfiyyətləridir, sevginin nə demək olduğunu bilməsidir.

Doğrudur, Sitarə üçün gənc müğənni (özünün təbiri ilə desək) - bu balacaboy oğlan münasibətlərdə o qədər xəsisdir ki, hətta Sitarə onun hər hansı bir artıq hərəkətinə də dözərdi. Ancaq o, belə bir artıq hərəkətə heç vaxt yol vermir. Elə buna görə də vaxt ötdükcə Sitarə bu gənc müğənniyə daha çox bağlanır, onu daha artıq dərəcədə sevir. Hətta xəyalında, düşüncəsində onun portretini belə yaradır və təəssüf ki, portretini də axıra qədər yarada bilmir. Çünki Sitarə onunla münasibətdə o qədər həyalı və ismətlidir ki, hətta başını qaldırıb bir dəfə belə onun gözünün içinə belə baxmayıb. Bu da onun göstəricisidir ki, sevənlər üçün bioloji hiss yüzüncü dərəcəlidir. Sitarə hətta axşamlar yatanda belə onun obrazını xəyalında canlandırır. Onun görkəmini, gözünün rəngini belə düşünməyə çalışır, görməyə çalışır: *"Görəsən, onun gözləri nə rəngdədir? Niyə indiyə kimi buna fikir verməmişəm? Üzünün bütün cizgiləri yadımdadır, gözünün quruluşu da. Amma rəngi yox. Təkcə rəngi. Heç vaxt onun gözlərinə diqqətlə baxa bilməmişəm. Səbəbini bilmirəm. Bəlkə ona görə istəmirəm ürəyimdən keçənlərin hamısını bilsin. Amma doğrudanmı gözlərimdə yazılanları o oxuya bilər? Yəni doğrudanmı onun haçansa belə bir fikri olub? Bilmirəm. Səbəbini özüm də bilmirəm. Bu suallar, müəmmalar yorub məni, ürəyimi üzüb, daha ürəyimdə heç bir istəyim, arzum yoxdur elə bil ondan savayı".* Zənnimizcə, Sitarənin bu düşüncələri öz sevgilisinə münasibətini tam ehtiva edir. Bu düşüncələr göstərir ki, o, gənc müğənnini əks cinsin nümayəndəsi kimi istəməkdən fərqli olaraq ruhunun təminatçısı kimi arzulayır. Çünki Sitarə qəlb istəyi kimi onu varlığına çəkmək istəyir. Onun adı gələndə ürəyi titrəyir. Heç bir şəhvani hiss duymur. Bu da onu göstərir ki, sevənlər üçün böyük mənəvi dünya var. İnsanın hisslərini, duyğularını məhdudlaşdıran, boğub tamaha, ehtirasa çevirən istəklər böyük sevgidə yaddır.

Ulduz Qasımın *"Tələbə gündəliyi"* əsərinin xronikası ayrı-ayrı hissələrinin axırlarında göstərilən 1984-cü il tarixinin yaz aylarını əhatə edir. Əlbəttə, bu zaman mühiti Sitarənin sevgi tarixçəsində daha çox ehtiva olunur.

Əgər Sitarənin tələbəlik həyatını onun düşüncələri ilə həmahəng şəkildə oxusaq, belə bir qənaətə razılaşmalıyıq ki, bu gənc qız üçün həyatın ən maraqlı və mənalı çağları elə onun sevgi duyğuları ilə yaşadığı dövrdür. Çünki Sitarə sevgi tarixçəsini *"Tələbə gündəliyi"*ndə ardıcıl olaraq yazıya gətirir, özü də tükənməz bir səbr və dözümlə. Hətta gecələr yuxuda olanda belə radioda onun sevgilisinin səsini andıran, sevgilisini onun varlığına gətirən musiqini eşidəndə belə həmin səsi öz müğənnisinin səsi kimi varlığına çəkir. Və bu zaman lirik nəğmələr Sitarənin özünün ürək tellərini çalması ilə səslənən nəğmənin eyni kimi duyulur:

*"... Gecələr gözümü də elə bil yuxu örtmür. Şirin yuxu həsrət dünyasına çəkilib elə bil. Qaçaq düşüb, uzaq düşüb gözlərimdən. Mahnı dinləyirəm, müğənni halımdan xəbərdarmış kimi oxuyur:*

*Yenə sənsiz bu axşam,*
*Yuxum qaçmış gözümdən.*
*Səni deyib durmuşam,*
*Xəbərim yox özümdən.*
*Hardasan, sevgilim,*
*Gəl, gəl, gəl...*
*Gözləyirəm yolunu...*

*Eh... bu yolun nə sonu var, nə əvvəli. Bu gün bu şeiri yazıb ona göndərdim:*

*Gəlişin bir aşiq, bahar yağışı,*
*Gedişin çuğlayan payız yeliymiş.*
*Ürəyim buz kimi, alovun, odun,*
*Süzgün gözlərinin şirinliyi imiş.*
*Mən niyə gətirdim ömrümə səni?*

*Hicranı qəlbimə elə yazmısan,*
*Loğmanım olmusan, pozmaq çətindir,*
*Ünvansız sevgimin ağrılarına,*
*Vallah dözmək olmur, dözmək çətindir,*
*Mən niyə gətirdim ömrümə səni?*

*Doğrudan da həmişə fikirləşmişəm ki, axı niyə onu ömrümə gətirdim? Niyə onu unuda bilmirəm? Yaxşı, bəyəm o xoşuma gələn hər hansı paltardı? İmkansızlıq ucundan ala bilməyəm? Sonra da yadımdan çıxarım? Yəni doğrudanmı başqaları istəklərini (əsil istəklərini) unuda bilirlər? Bu onları həmişə yandırmır? Doğrudan belə deyilsə, o qız demiş, mən hansı planetdən gəlmişəm?".* Bundan əvvəl Sitarə onu başa düşə biləcək-bilməyəcək insanlara daxili monoloqunda belə deyir ki, kaş onlar mənim yaşadığım günün bircə anını yaşayaydılar, onda bilərdilər ki, mən nə çəkirəm. Zənnimizcə, başa düşülsi məqamlardır. Hətta nəğmənin içərisinə hopmuş olan duyğular belə son dərəcə sevgi notlarının gərginlik üzərində köklədiyini duymaq olur.

Sitarə savadlı qızdır. O, ədəbiyyatı da, incəsənti də, xüsusilə poeziyanı da qədərincə bilir. Hətta öz halını, gününü yeri gələndə klassiklərin düşüncələri ilə şərh edə bilir. Lap elə Hüseyn Cavidə istinadən özünün sevgi iztirablarına bəraət qazandıra bilir: *"Hüseyn Cavid deyib ki, sevgi üçün əyilmək dünyada ən ali böyüklükdür. Bunu hamı bacara bilməz. Heç bilmirəm bu fikrin mənə dəxli varmı? Sözdən tonqal qalayanlar, yaqin ki, heç vaxt razılaşmazdılar, öz quru, yersiz sözdə olan vüqarları ilə böyük şairə hücum çəkərdilər. Dünyada ən böyük alçaqlıqları bacardıqları halda elə hay-küylə danışırdılar ki! Bunu ancaq ən həssas adamlar başa düşə bilərlər. Başa düşə bilərlər ki, insan ömründə çətin anlar olur. Elə çətin anlar ki, nə edəcəyini bilmirsən. Həlak olursan fikirlərin əlində. Birdən nə edəcəyini özün də bilmirsən. Ən doğma, əziz adamlarının yanında yad hiss edirsən, qərib sayırsan özünü. Yer tapa bilmirsən özünə bu böyük dünyada. Kimsəsizləşirsən, yadlaşırsan. Qınayırlar səni yersiz. Hamıya da deyə bilmirsən nə olub sənə. Heç bilmirsən ki, haqqında da nə fikirləşirlər".* Belə bir halda insan nə edər? Sitarə də belə bir durumda qalıb. Onun *"Tələbə gündəliyi"*ndə bu barədə belə yazılıb: *"Nə istəyirəm? Doğrudan, nə istəyirəm mən? Yalnız onu bilirəm ki, onun olmaq istəyirəm. Son günümə, son anıma kimi. İstəyirəm bütün dünyanın adamları nifrət eləsin mənə. Ondan savayı. Təkcə o istəsin məni. Özü də çox yox, mənim qədər yox. Lap az. Bəs eləyər mənə. İstəyirəm onunla birlikdə çətinliklərə dözək. Ən ağır dəqiqəsində ümidi olum, dayağı olum. Heç bir fikir çəkməsin, bilsin ki, dünyada var-dövlət, arxalı olmaq boş şeydir. Dünyada ən yaxşı adamlar, ən xoşbəxtlər belə yaşayıblar. Bax onda mənim dünyamın yaşıl-yaşıl çəməni olar, uca-uca dağları olar, çəmənlər telinə laləlәr taxar. Mavi gözlü bənövşəsi olar fasillərimin. Mavi-mavi səmalarım olar, ulduzlu-ulduzlu gözlərim olar və elə bilərəm mən dünya yarada bilərəm. Ürəkdən sevinərəm, daha nə istəyə bilərəm...".* Beləliklə, Sitarə öz sevgi konsepsiyasına inşa etmiş olur. Onun sevgi kredosunda tərəddüd yoxdur. Qənaətləri birmənalıdır, istəkləri yalnız bir hədəfə doğru yönəlib. Sitarənin birmənalı, tərəddüdsüz olduğunu gənc müğənni ilə uzun-uzadı dialoqları da sübut edir. Həmin dialoqların hamısında Sitarə sevdiyi oğlanın hansı qənaətində olmağının fərqinə varmadan öz mövqeyində sabit-qədəmdir, fikirləri aydındır, düşüncələri təmizdir. Beləliklə, Sitarə üçün sevgisi uğrunda mübarizə finala çatır. Hisslərin, duyğuların ən yüksək zirvəsində belə arzuladığı cavabı almasa da, düşüncə baxımından tərəddüdsüzdür. Son anda bütün dialoqlar bərabər səviyyədə gedir. Sitarə sevgisini axıracan müqəddəslik məqamında qoruyur. Şəxsiyyət kimi ləyaqətlə qoruyur. Sevginin daha üstün tərəflərini tərənnüm edərək qoruyur.




# 8. İSTƏYİN SON HƏDDİ

Beləliklə, Sitarə üçün mənəvi mühit yalnız sevgi motivlərini yaşamağın dəyəri ilə nizamlanır.

Hətta o sevgi iztirablarından yaxa qurtarmaq, ağır düşüncələrini yüngülləşdirmək üçün mənzil şəraitini dəyişir. Ona elə gəlir ki, mənzil şəraitini dəyişəndə həyat şəraiti psixoloji baxımdan yüngülləşəcək. Onun yeni mənzildə tanış olduğu mənzil sahibinin dərd, fikir, düşüncə qayğıları özününkünə qarışaraq onu yenidən əzməyə başlayır. Əslində yazıçı Ulduz Qasım bununla demək istəyir ki, sevgi iztirablarından qaçmaqla insan heç vaxt öz həyatını yüngülləşdirə bilməz.

Əlbəttə, sonralar da onun müğənni ilə görüşləri davam edir. Təəssüf ki, bu görüşlərin demək olar ki, hər biri işgüzar mahiyyət daşıyır. Onun sevdiyi gənc müğənni səsyazmaya gəlir, yaxud kitab gətirir. Lap elə Sitarə də ona hansısa bir kitabı verir. Beləliklə, görüşlər davam edir. Ancaq Sitarənin bu görüşlər zamanı arzuladığı, hava, su kimi istədiyi cavab gənc müğənninin dilindən səslənmir.

Günlər isə ötməkdədir.

Elə bu məqamda rəqib meydana çıxır. Əlbəttə, imkanları ilə gənc müğənnidən çox yuxarıdır. Üstəlik də lap Sitarənin dərdindən öldüyünü də etiraf edir. Amma Sitarə lap qurdla qiyamətə qalsa belə, düşüncələrinin mərkəzində paytaxt qurmuş, tac qoyub əyləşmiş sevdiyi gənc müğənninin obrazını kimsəyə dəyişmək niyyətində deyil. Maraqlıdır ki, Sitarə ətrafından ona təlqin olunanların heç birisi ilə barışmır. Ona yeni pərəstişkarın imkanları haqqında danışırlar. Ancaq Sitarə bunların heç birisini ağlına, düşüncəsinə yaxın qoya bilmir. Belə olan halda ondan soruşurlar ki, axı sən nə istəyirsən? Şübhəsiz, bu məqamda Sitarə dəqiq və aydın cavab verməli olur. Həmin cavabı isə gündəlikdən oxuyuruq: *"Nə istəyirəm? Doğrudan, nə*

Onun sevdiyi gənc oğlan da bu sevgi döyüşündə qədərincə hörmətli görünür. Onu sevən gənc qıza münasibətində axıracan ləyaqətli olur, heç bir ucuz hərəkətə yol vermir. Beləliklə, bu açıq-aydın sevgi qarşılaşması tərəflərin *"Pirr qələbəsi"* ilə sona çatır. Əlbəttə, buna sona çatır demək olmaz. Çünki nə gənc oğlan özünün qəti fikrini deyə bilməyib. Nə də Sitarə hər hansı bir tərəddüdü özünə yaxın buraxmayıb. 5 aydan çox vaxt keçir. Bu vaxtın hamısı Sitarənin iztirabları bahasına başa gəlir. Həmin gənc müğənni də nə Sitarədən ayrılmır, nə də ona ümidverici bir vəd vermir. Yalnız əsərin sonuna yaxın biz hiss edirik ki, bu gənc müğənninin özünəxas bir problemi var. Yəni o, sağlamlıq durumu ilə bağlı əslində mərdanəlik göstərək Sitarənin istəklərinə cavab verə bilməsə də onun sonsuz və dəlicəsinə sevgisindən sui-istifadə etmir.

Beləliklə, son görüşdə məlum olur ki, gənc müğənni müalicəyə getməlidir, daha doğrusu, axırıncı və tale baxımından gələcəyi o qədər də aydın olmayan bir əməliyyat onu gözləyir.

Və nəhayət, Sitarə üçün hər şey aydın olsa belə, Sitarə onu böyük ümidlərlə əməliyyata yola salır. Düşüncəsi ilə, fikirləri ilə, xəyalları ilə yola salır. Əməliyyatdan sonra onlar görüşəcəklər, görüşməyəcəklər - bu artıq gələcəyin işidir. Sitarənin son düşüncələri belə bir məntiqlə oxucuya ünvanlanır: *"Ölçüsüzlüyə qovuşacaq istəyim. İnanıram, özüm kimi inanıram ki, onda o da dünyanın xoşbəxti olacaq...".* Yaxşı sonluqdur. Ümidli sonluqdur. Hətta gənc müğənni Sitarənin sevgisini vüsalına qovuşduracaq sağlamlıqla təzədən qayıtmasa belə, inamlı sonluqdur.

Sitarə axıracan haqlı durumla yaddaşımızda qalır.

**28.06.2022**

***Əli Rza XƏLƏFLİ***